**Orucoğlu, Zəfər**. Qəhrəmanlıq dastanı / Z. Orucoğlu // Respublika. - 2022. - 16 fevral. - **№ 35**. - S. 5.

1994-cü ildə Lerik rayonunun Günəşli kəndində dünyaya göz açmış Vüqar Tumarxan oğlu Mövlanov böyüdükcə böyük amallı, ülfətli, iradəli bir gənc kimi müstəqil həyata qədəm qoyur. Çox keçmir xeyirxah, nəcib əməlləri ilə el gözündə ucalır, hamı ona əsl övlad məhəbbəti bəsləyir.

Vüqar 2013-cü ildə ordu sıralarına gedir. Vətənpərvərliyi, mərdliyi, xoşniyyəti əsgərlik həyatında həmişə onu başıuca edir. Məqamı gələndə Azərbaycan torpaqlarını işğal altında saxlayan erməni faşistlərinə qan qusdurmaq bu, Vətən sevdalı igidin arzusu olur.

Bəli, Vüqar layiqli bir övlad tək canından artıq sevdiyi Vətən qarşısında oğulluq borcunu şərəflə yerinə yetirib evinə qayıdır. Mühafizə polisi vəzifəsində işləyir. İnsanlara qarşı saf ünsiyyəti, cəmiyyətə fayda vermək əzmi, halallığa tapınan işi, əməli onu gözlərdə haqqın, ədalətin carçısına döndərir. Həm də gördükləri əməllərlə adamları yalnız həyata, yaşamağa, qurub-yaratmağa sövq edir. Bütün bunlarla bərabər Vətəninə, xalqına bağlı gənci Qarabağ dərdi çox narahat edir. Əlinə silah alıb Azərbaycanın müqəddəs parçası olan Qarabağ torpaqlarının azadlığı uğrunda döyüş meydanında düşməni əzmək istəyi ilə o günü gözləyir.

Nəhayət , Vüqarın arzuladığı gün gəlir. İkinci Qarabağ müharibəsi başlanan kimi, heç bir göstəriş gözləmədən könüllü cəngavər libasını əyninə geyinib torpağı qanı ilə Vətən edən igidlərin cərgəsində odun-alovun içinə atılır. Çox ölümlə üz-üzə gəlir, amma qəlbində özünə yer edən ilahi bir sevgi daim Vüqarı qələbəyə doğru aparır. Doğma torpağın qeyrətini hər şeydən əziz bilir, canı bahasına onu düşməndən təmizləməyi müqəddəs iş sayır. Füzulidə, Hadrutda, Şuşada ağır döyüşlərdə şücaət göstərir, düşmənə vurduğu sarsıdıcı zərbələri 30 il Qarabağı əsarətdə saxlayan yağı düşmənin bağrını yarır, böyük zəfərimizə yol açır. 6 noyabrda şəhid kimi adını tarixə yazır. Özü şəhid olsa da, torpaq uğrunda axıtdığı qanı Vətənin zəfəri olur...

Müharibə meydanında hünər göstərib millətinə başucalığı gətirən Vüqar indi bütün Lerik camaatının ürəyində yaşayır. Layiq görüldüyü “Vətən uğrunda” medalı Vüqarın şərəfli ölümündən gələcək nəsillərə layiqli nişanədir.